# Hər şey qədərdəndir. Hətta acizlik və çalışqanlıq da yaxud çalışqanlıq və acizlik də

Tavusdan belə dediyi rəvayət edilir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) sahabələrindən bir çox insana yetişdim ki, onlar -"Hər şey qədərdəndir" - deyirdilər. Dedi: Abdullah bin Ömər (Allah onların hər ikisindən razı olsun) belə dediyini eşitdim: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Hər şey qədərdəndir. Hətta acizlik və çalışqanlıq da yaxud çalışqanlıq və acizlik də".
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etdi ki, hər şey qədərdəndir. Hətta acizlik qədərdəndir, və bu - dünya və axirət məsələlərində, vacib olan əməlləri tərk edib, bu əməllərin tətbiqini gecikdirmək, vaxtını uzatmaqdır. Eyni zamanda çalışqanlıq da qədərdəndir və bu- dünya və axirət işlərində mahir və aktiv olmaqdır. İzzət və Cəlal sahibi olan Allah , acizliyi, aktivliyi və hər şeyin qədərini təsbit etmişdir. Yaradılışda olan hər şey Allahın öncədən bildiyi elminə və istəyinə görə gerçəkləşir

https://sunnah.global/hadeeth/az/show/65039